# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstanda qəzaya uğraması və 38 nəfərin həyatını itirməsi ilə bağlı xəbəri dərin kədər hissi ilə qarşıladım.

Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, həmrəyliyimi ifadə edirəm. Düşüncələrim ailə üzvlərini və yaxınlarını itirənlərlədir. Yaralananlara tezliklə və tam sağalmağı diləyir, bu faciənin səbəblərinin araşdırılmasının tezliklə başa çatdırılacağına ümid edirəm.

*Dərin hüznlə,*

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, çoxlu sayda insanın həlak olması ilə nəticələnən faciəvi təyyarə qəzası ilə bağlı Macarıstan xalqı adından və şəxsən öz adımdan səmimi başsağlığımı çatdırım. Dualarım və düşüncələrim həlak olanların və onların ailə üzvlərinin yanındadır.

*Dərin hörmətlə,*

***Tamaş ŞUYOK,***
***Macarıstanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Dekabrın 25-də "Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin qəzaya uğraması nəticəsində çox sayda insanın həlak olması ilə bağlı sarsıdıcı xəbər məni dərindən kədərləndirdi. Finlandiya xalqı adından və şəxsən öz adımdan Sizə və həyatını itirənlərin yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Düşüncələrimiz həlak olanların ailələri və doğmaları ilə, o cümlədən bütün xalqınızladır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Aleksandr STUBB,***
***Finlandiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Dekabrın 25-də çox sayda insanın həlak olduğu və yaralandığı faciəvi təyyarə qəzası ilə bağlı xəbər bizi dərindən kədərləndirdi.

Surinam Respublikasının hökuməti və xalqı adından Azərbaycan Respublikasının hökumətinə və xalqına dərin hüznlə başsağlığı verirəm.

Düşüncələrimiz və dualarımız yaxınlarını itirmiş ailələrin yanındadır. Ümid edirik ki, xəsarət alan sərnişinlər tezliklə və tam sağalacaqlar.

Bu ağrılı-acılı günlərdə Uca Allahdan Sizə və xalqınıza səbir diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Çandrikapersad SANTOXİ,***
***Surinam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Qazaxıstan Respublikasının Aktau şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası barədə xəbəri dərin kədər hissi ilə qarşıladım. Bu dəhşətli faciə zamanı insan itkisinə görə dərindən təəssüflənirəm.

Sizə, dost Azərbaycan xalqına və həlak olanların ailələrinə bu kədərli anlarda ölkəmizin vətəndaşları adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmalarını diləyirəm.

*Dərin hüznlə,*

***Qordana SİLYANOVSKA-DAVKOVA,***
***Şimali Makedoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin Bakıdan Qroznıya uçarkən Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəvi şəkildə qəzaya uğraması barədə xəbəri dərin kədər hissi ilə qarşıladım. Dünya Turizm Təşkilatı adından və şəxsən öz adımdan Sizə dərin hüznlə başsağlığımızı bildirirəm.

Düşüncələrimiz bu faciəvi hadisə nəticəsində yaxınlarını itirən ailələrin, yaralananların yanındadır. Bu çətin anda biz Azərbaycan xalqı ilə həmrəy olduğumuzu bildiririk.

Qəzada xəsarət alanların tezliklə və tam şəfa tapmalarını arzulayır, bu kədərli anları yaşayan hər kəsə bir daha başsağlığı veririk.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Zurab POLOLİKAŞVİLİ,***
***Dünya Turizm Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

Dekabrın 25-də baş vermiş təyyarə qəzası nəticəsində insan tələfatı xəbəri məni dərindən kədərləndirdi. Zati-alinizə, həlak olan həmvətənlərinizin ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Mənim qəlbim Azərbaycan xalqının yanındadır. Qəzada yaralananların tezliklə şəfa tapmalarını diləyirəm.

Mən Sizinlə və Azərbaycan vətəndaşları ilə birgə bu kədəri bölüşürəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Hans Henri KLUGE,***
***Ümumdünya Səhiyyə Təşkilatının Avropa***
***üzrə regional direktoru***

Azərbaycan.-2025.- 7 yanvar (№ 1).- S.4.